| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 31.05.2002 |
| QEYDİYYAT NÖMRƏSİ | 334-IIQ |
| ADI | Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-07-2002, Nəşr nömrəsi: 07, Maddə nömrəsi: 386) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 330.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

M a d d ə 1 . **Qanunun məqsədi**

Bu Qanun dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqq təyin edilməsi qaydasını müəyyən edilir.

M a d d ə 2 . **Hakimiyyət səlahiyyətinin verilməsi**

Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısı qanunvericiliklə müəyyən edilir.[1]

M a d d ə 3 . **Hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın məbləği**

Dövlət qulluqçusuna hakimiyyət səlahiyyəti vermək barədə qərar qəbul edildiyi vaxtdan müvafiq səlahiyyətin icrasına görə hər ay vəzifə maaşına qanunvericiliklə müəyyən edilmiş məbləğdə əlavə haqq verilir. [2]

M a d d ə 4 . **Hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın ödənilməsi mənbəyi**

Hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın ödənilməsi hakimiyyət səlahiyyətinə malik olan dövlət qulluqçusunun qulluq keçdiyi müvafiq dövlət orqanı üçün dövlət büdcəsində nəzərdə tutulmuş əmək haqqı fondu həddində həyata keçirilir. [3]

M a d d ə 5 . **Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 may 2002-ci il
334-IIQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 4 noyabr 2003-cü il tarixli 506-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 12, maddə 671**)
2. 28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 399)**

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 4 noyabr 2003-cü il tarixli 506-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 12, maddə 671**) ilə 2-ci maddədə "**qanunvericilik və müvafiq icra hakimiyyəti orqanı tərəfindən** " sözləri "**qanunvericiliklə**" sözü ilə əvəz edilmişdir.

[2] 4 noyabr 2003-cü il tarixli 506-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 12, maddə 671**) ilə 3-cü maddədə "**qanunvericilik və müvafiq icra hakimiyyəti orqanı tərəfindən** " sözləri "**qanunvericiliklə**" sözü ilə əvəz edilmişdir.

[3] 28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 399)** ilə 4-cü maddəsində “**işlədiyi**” sözü “**qulluq keçdiyi**” sözləri ilə əvəz edilmişdir.